# Qəhrəmanlıq tariximizin şanlı zirvəsi

**30 illik həsrətimizin ünvanı Şuşa... İllərin ayrılığından sonra elə bir azərbaycanlı tapılmaz ki, sənin ziyarətinə getməyi arzulamasın… Sən şəhidlərin qanı ilə suvarılmış müqəddəs məkanımız, arzularımızın, niyyətlərimizin qibləgahısan… Sənin ziyarətinə gələn Azərbaycan əsgərinin keçdiyi o keçilməz yolları görüb qürurlanır, sənin görüşünə gələn ahıl, qoca bugünkü növrağını görüb həyat eşqi artır. Havan da, suyun da, o müqqəddəs torpağın da səni sevənlərə can verir, ruh verir, insanın yaşam həvəsini artırır…**



Əsl vətəndaş yalnız özünün, yaxınlarının uğuru, gücü ilə sevinən deyil. Əsl vətəndaş dövlətinin gücü, ordusunun qüdrəti ilə fəxr edən, onunla iftixar duyan, dövlətinin uğuru ilə yaşayıb özünü təmsil olduğu dövlətin övladı bilənlərdi. Sən bu gün Azərbaycan əsgərinin qəhrəmanlıq simvolu, Azərbaycan dövlətinin gücünün, qüdrətinin aynasısan. Sən bizim şanlı keçmişimiz, mənəvi qalamız, xoş gələcəyimizin ünvanısan, Şuşa. Aparılan abadlıq-quruculuq, bərpa və tikinti işləri daha gözəl gələcəyinin müjdəsini verir.

Bu gün elə insanlarımız var ki, "Allahım, Şuşanı görməmiş məni öldürmə", sənin görüşünə gələndən sonra, "Bundan sonra ölsəm də, bir dərdim yoxdur", "Şuşanı gördüm, bu dünyadan nakam getmirəm", - deyirlər…

Bu günlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi, Bilgəh Ahıllar Evinin bir qrup sakininin arzusunu nəzərə alaraq onların Şuşa şəhərinə səfərini təşkil edib.

Heç kimə sirr deyil ki, Bilgəh Ahıllar Evində cəmiyyətin müxtəlif təbəqəsini təşkil edən ahıllar məskunlaşıblar. Burada övladı, heç bir doğması olmayan da var, ailəsindən, əzizlərindən küsüb dövlətinə üz tutanlar da. Onlardan bütün yaxınları, doğmaları imtina etsə də, dövlət onlara qucaq açıb, xəstə, sınıq könüllərini müalicə edib. İndi onlar "Dövlətim var, hər şeyim var" prinsipi ilə yaşayırlar.

Müəssisənin direktoru Samirə Mehtiyeva bizimlə söhbət zamanı bildirdi ki, qəhrəman əsgərlərimiz Şuşanı düşmən işğalından azad etdikdən, oraya səfərlər başlanandan sakinlərimiz bu unikal məkana getmək istədiklərini bildirirdilər. Hətta elələri də var ki, "gedib Şuşada ölsəm, elə biləcəm ən müqəddəs ziyarətgahda ölmüşəm", - deyirdi. Biz də onların istəyini nəzərə alıb ahılların Şuşaya səfərlərini təşkil etmələri üçün Sosial Xidmətlər Agentliyinə müraciət etdik. Fürsətdən istifadə edib. "Şuşa ili" çərçivəsində bizim səfərimizi təşkil etdiyinə görə agentliyin rəhbərliyinə ahıllarımızın adından minnətdarlığımızı bildirirəm.

Sakinlərimiz Şuşada Yuxarı Gövhər ağa məscidində, Bülbül və Üzeyir bəy Hacıbəylinin ev-muzeylərində oldular, Vaqifin məqbərəsini ziyarət etdilər. Eləcə də Cıdır düzündə gəzinti və tarixi Şuşa qalası ilə tanışlıq ahıllarımızın xatirəsində unudulmaz təəssüratlar yaratdı.

İştirakçılar Şuşanın tarixi-mədəni irsi, həmçinin görülən quruculuq və bərpa işləri ilə tanış oldular.

Səfər iştirakçısı Əli Məmmədov təəssüratlarını bizimlə bölüşür:

- Ömrümün çoxunu yaşamışam. Şuşanı, əsgərlərimizin canlarını qurban verib aldıqları o müqədəs yerləri gəzmək ən böyük arzum idi. Çox şükür ki, bu arzuma da çatdım.

Mən özüm müəllim olsam da, musiqini çox sevirəm. Mədəniyyətimizin paytaxtı Şuşada Azərbaycan musiqisinin, mədəniyyətinin nəhəng simaları, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeylərində oldum. Bülbülün abidəsi önündə "Sənsiz" romansını oxudum. Bu "Sənsiz" həm də 28 il Şuşasızlığın "sənsiz"i idi. Bu gün Şuşamız azaddır. Bu gözəlliklər şəhərində gedən bərpa, tikinti, quruculuq işlərini görüb dövlətimlə, Prezidentimlə qürur duydum.

Daha bir səfər iştirakçısı Həbib Qənbərovun təəssüratını həyəcansız dinləmək olmur:

- Şuşaya özümüzlə bayrağımızı da aparmışdıq. O torpağa qədəm qoyanda elə zənn etdim ki, ən müqəddəs ziyarətgahdayam. İmkanım olub döyüşlərə qatılsaydım, mən də şəhidlik zirvəsinə yüksəlməyi özümə şərəf bilərdim. Şuşa mənim üçün canını vətən uğrunda qurban vermiş şəhidlərimizin möhtəşəm abidəsidir.

Səfər iştirakçısı Rəfiqə Səmədova deyir ki, əsgərlərimizin keçib getdiyi Zəfər yolu ilə Şuşaya çatmağın qürurunu yaşadım. Yolboyu dövlətimizin qüdrətini gördüm. O yollardan keçib Şuşaya gedən əsgərlərimizin vətən sevgisini canımda hiss etdim. Belə gözəl anları bizə yaşadanlara, Şuşanı bizə qaytaranlara, bu qalibiyyət ordusunu quran və ona sərkərdəlik edən Ali Baş Komandana çox minnətdaram. Şuşa gözəlliyin rəmzidir. Havası, təbiəti cənnət qoxuludur. Şuşa ilində, oktyabr ayında Şuşaya səfər etmək mənim üçün böyük xoşbəxtlikdir.

Şuşa, sən bir həyatsan! Sən qüdrətimizin rəmzisən. Torpağına qədəm qoyan səndən güc alır. Şuşa sən bir işıqsan, səni sevib, sənə üz tutanı öz nurunla boyayırsan.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***